Aqrar Xidmətlər Agentliyi



# PASTERELYOZ XƏSTƏLİYİ

## Xəstəliyin əlamətləri

- Pasterelyoz (hemorragik septisemiya) - kənd təsərrüfatı heyvanlarının, həmçinin vəhşi heyvan və quşların kəskin septik (**septisemiya və ya sepsis, bakteriyalar tərəfindən qanda zəhərlənmə**) xəstəliyidir.

- Pasterelyoza daha çox **camışlar, iribuynuzlu heyvanlar**, **quşlar** və **dovşanlar** yoluxurlar. Bu xəstəliyin əsas mənbəyi xəstə və xəstəliyi keçirmiş heyvanlardır.



- Xəstəliyin inkubasiya dövrü 1-5 gündür
- Yüksək temperatur
- Tənəffüs zamanı xəstəliyə xas olan xarakterik səslər (kriptasiyalı səs)
- Zəiflik
- Tənəffüsün tezləşməsi
- İştahasızlıq
- Laktasiyanın kəsilməsi
- İshal
- Duru nəcis , üfunətli
- Başın, boyunun, döş altının şişməsi
- Konyuktivit
- Selikli qişaların sianozu
- Plevropnevmoniya
- Qanlı ishal
- Qəbizlik
- Tənəffüs orqanlarının zədələnməsi
- İrinli rinit
- Öskürək
- Qanlı sidik ifrazı



İnəklərdə



Toyuqlarda



Ördəklərdə



Dovşanlarda

## Profilaktika və mübarizə tədbirləri

- Heyvanların saxlanma və yemlənmə şəraitini yaxşılaşdırmaq, xəstə heyvanları ayrıca saxlamaq lazımdır. Vaksinlə profilaktik peyvəndləmə aparılır, vaksin və ya dərman preparatlarından istfadə təlimata uyğun qaydada həyata keçirilməlidir. Müalicə məqsədilə xəstə heyvanlara antibiotiklərlə birlikdə pasterelyoz zərdab tətbiq edilməlidir.

- Təsərrüfatları bu infeksiyadan qorumaq üçün yeni gətirilən heyvanları karantində saxlamaq, dezinfeksiya (**infeksiya mənbəyini məhv etmək üçün aparılan üsul və vasitələr**) - deratizasiya (**gəmiricilərlə mübarizə** ) tədbirlərini mütamadi olaraq həyata keçirmək lazımdır. Dezinfeksiya məqsədi ilə 5%-li kreolin, 2%-li natrium qələvisi və **20%-li sönmüş əhəng** məhlulundan istifadə edilir.

**Aqrar Xidmətlər Agentliyi** fermerlər və təsərrüfat sahiblərinin nəzərinə çatdırır ki, heyvanlarda yuxarıda qeyd edilən əlamətlər müşahidə etdildikdə sahə baytarlıq məntəqəsinə və ya rayon (şəhər) baytarlıq idarəsinə təcili olaraq müraciət etsinlər.

Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 7 A

Çağrı Mərkəzi **1652**

info@axa.gov.az

**www.axa.gov.az**

Aqrar Xidmətlər Agentliyi